**PƏRVANƏ QULİYEVA**
**Gəncə Dövlət Universiteti**
**Gəncə** şəhəri, H.Əliyev prospekti 187
**pervane@mail.ru**

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏRDƏ MIFOLOJI IZLƏR

**Xülasə**

Atalar sözləri və məsəllər onu yaradan xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyaya baxışını, inam və etiqadını, adət və ənənəsini əks etdirən, onun bəşər tarixində məxsusi yerini göstərən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrə, hətta unudulub getmiş, hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir. Buna görədir ki, tədqiqatçılar bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar.

Tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi incilər mənbəyi vasitəsi ilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillərini, dilin leksik-qrammatik qayda-qanunlarmı tədqiq etmək işində əvəzsiz mənbə nöqteyı-nəzərindən yanaşır. Atalar sözünün, həqiqətən, hər biri bir incidir. Xalq bunları yüz illər boyu yaratmış, yaşatmış, bu gün də yaşadır və yaradır.

Qərinələrdən öncə yaranan, müdriklik süzgəcindən keçərək həyata əbədi vəsiqə alan, zəmanəmizə qədər gəlib çıxan, atalar sözləri və məsəllər indi də öz əhəmiyyətini itirmir, hikmət və tərbiyə təsirini saxlayır, milli xarakterin tarixini, onun mənəvi-psixoloji təkamülü yolunu öz ziyası ilə işıqlandırır.

**Açar sözlər:** xalq, atalar sözü, həyat, janr, cəhət, yaradıcılıq, xüsusiyyət

Atalar sözü xalqın mübarizəsi, əməyi, düşüncələri, təcrübə və sınaqları, dünyabaxışı, həyata münasibətləri haqqında dərin və geniş mənalar ifadə edən konkret janrdır.

Atalar sözü və məsəllər xalq kütlələrinin gündəlik həyatı və fəaliyyəti ilə daha çox bağlıdır. Azərbaycan atalar sözü və məsələlərinin mövzu dairəsi çox genişdir. Bunlar xalqımızın hərtərəfli həyatı ilə əlaqədar yaranmışdır.

Atalar sözü və məsəllər xalqın həyatı və məişəti, əmək fəaliyyəti ilə daha sıx bağlı olan, formaca kiçik, mənaca geniş janrlardan biridir. Atalar sözü və məsəllərdə xalq hikməti, xalq zəkası xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir. Ona görə də danışıq dilində ifadələrin daha canlı, sərrast və təsirli olması üçün atalar sözü və məsəllərdən istifadə olunur.

Atalar sözü və məsəllər bir-birinə çox yaxındır. Bunları bir-birindən ayırmaq çox vaxt hətta çətin olur. Lakin bunları fərqləndirən cəhətlər də vardır. Bu barədə müxəlif fikirlər söylənmişdir. Bəzi tədqiqatçılar bu fərqləri onların qrammatik quruluşunda görmüş, bəziləri həcmcə kiçik və böyük olmalarında axtarmış, bəziləri isə məsəllərdə daha çox məcaz, idiom, müqayisə və s. işləndiyinə görə atalar sözlərindən seçildiyini qeyd etmişdir. (5, 75)

Deməliyik ki, atalar sözü və məsəllər forma və zahiri xüsusiyyətlərinə görə deyil, məhz məzmunlarına görə bir-birindən ayrılır. Bu məzmun fərqi olduqca incə və gözəgörünməyən

olduğuna görə çox zaman hər iki qism bir- birinə qarışdırılır. Bu məzmun fərqi isə ondan ibarətdir ki, atalar sözü fikri tam ifadə edir, onlarda ümumiləşdirmə, fikir dərinliyi mühüm yer tutur. Əksinə, məsəllər çox zaman bu və ya digər konkret hadisəyə aid olub, natamam fikir ifadə edir. Əgər atalar sözündə mühakimə tam və hərtərəfli isə, məsəllərdə hadisəyə işarə edilir, adi çəkilir, onda tamamlanmağa eytiyac vardır. Məsəllər sözgəlişi, tez-tez deyilən, bəzən naməlum kimi görünən hadisəyə izahat vermək üçün işlənən populyar bir janrdır. Danışıq zamanı "Məsəl var: az aşım, ağrımaz başım" şəklində işlədilir. Diqqət edilsə atalar sözünün hamısında, tam mühakimə, bitmiş fikir, ümumləşdirmə və fikir vardır:"Ağac bar verəndə başını aşağı salar", "Hər şey nazikliyindən sınar, insan yoğunluğundan", "Həqiqət incələr, üzülməz", "Ziyanın yarısından qayıtmaq qazancdır", "Zəhmət çəkməyən rahatlığın qədrini bilməz", "İnək su içər süd olar", "Mərdin süfrəsi açıq olar” və s. Məsəllərdə isə bu əlamətlərin əksəriyyəti yoxdur: "Dişsiz ağız – daşsız dəyirman", "Baldız- çuvalduz", "Sənin üzün, dəvənin dizi", "Yaz gününün yağışı-ər-arvadın savaşı", "Ayrı qardaş- yad qonşu","Adamın yerə baxanı-suyun lal axanı" və s. (4, 105)

Çox zaman atalar sözü məsələ, məsəl atalar sözünə çevrilə bilər. Bunun üçün məsəldəki fikri tamamlamaq məqsədilə bir söz artırmaq kifayətdir. Əgər yuxarıda adlarını çəkdiyimiz məsəllərin axırlarına "kimdir" sözünü artırsaq, fikri tamamlayır, məsəli atalar sözünə çevirmiş olarıq.

Atalar sözü və məsəllərin zənginləşməsində xalq yaradıcılığının bir sıra başqa janrları da əsaslı rol oynayır. Elə bayatı, tapmaca, lətifələr var ki, ağızlarda atalar sözü və məsələ çevirir. Bu cəhətdən Molla Nəsrəddin lətifələri xüsusi xarakterikdir. "Kişinin sözü bir olar", "Sən çaldm", "Kişinin malı göz qabağında", "Dedilər molla, aş aparırlar, dedi: mənə nə, dedilər, sizə aparırlar, dedi: sənə nə" və s. bəzən böyük həcmi nağılların , rəvayyət və əfsanələrin də əsas məğzi, mənası atalar sözü şəklinə düşür. Məsələn, "Özüm-özümə elədim, külü gözümə elədim","Yaxşılıq elə, at dəryaya, balıq da bilməsə, xalq bilər", "Bütünü kəsmə, paraya dəymə, doğra, doyunca ye", Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" və s. (2, 86)

Bu janrda xalq dastanlarından da istifadə edilmişdir. "Sənki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu", "Çoxları atasının gözlərini çıxartdı ki, ona Koroğlu desinlər, elə hey dedilər kor kişinin oğlu", "Koroğlu üçdən deyib" və s.

Elə mahnılar, ağılar, bayatı və laylalar da vardır ki, çox zaman ondan məsəl kimi istifadə edirlər. Məsələn:

Bala dadı, bal dadı,
Bala adam aldadı,
Şirini şirin olur,
Acısı da bal dadı. (3, 57)

Xalq əzəl binadan öz atalar sözlərini yazılmamış müqəddəs kitabın ayələri tək qavramışdır. Atalar sözü timsalında xalq öz zəkasına və dilinin ülviyyətinə, kəsərinə sığınmışdır: istənilən gümandan, sualdan azaddır. Hər fikri, hər etik-əxlaqi tövsiyyəsi dərin daxili inamla qəbul olunan pozulmuş qanundur.

Atalar sözü və məsəllər xalqların məişətinə möhkəm daxil olmuşdur. Atalar sözlərini hər an, hər dəqiqə işlədirlər. Hər adam sözdə-söhbətdə məsəldən danışır, hətta folklor toplayıcılardan Eynal Sultan Qəmərlinski, Əbülqasim Hüseynzadə, Məmmədhüseyin Təhmasib və b. folklorşünaslar "Atalar söləri və məsəllər" başlığı altında minlərlə atalar sözləri çap etdirmişlər. Məsəllər bunlarm cuzi hissəsini təşkil edir.Bu niyə belədir? Yoxsa məsəllər azlıq təşkil edir? Yox! Atalar sözləri müstəqil başa düşülür. Lakin məsəllər belə deyildir. Hər bir məsəlin izaha ehtiyacı vardır. Ruslar məsəlləri "Sözün gülzarı" adlandırırlar. Özünün də mənasını ifadə edən faydalı adları var. "Məsəl", "E1 sözləri", "Türkün məsəli". Bunların mərkəzində "Zərbül məsəlləri" dayanır. Bu o deməkdir ki, söz elə zərblə, güclə, qüvvətlə

mərkəzi hədəfə dəyir. Söz insanın qanına, iliyinə işləyir. Çünki, hər bir zərbül məsəlləri elə bir hikmətli ifadələrlə yadda qalan bir hadisəni üzə çıxarır. Əgər bir zərbül məsəlləri bu yöndə, bu şəkildə toplasaq cild-cild kitablar meydana çıxar. Həmdə onlar əfsanələrimizlə, rəvayətlərimizlə bir sırada dayana bilərlər. Bu kitablar oxuyucular üçün çox faydalı ola bilər. Hamı zəkanın və onun işığının şöləsinə yığışarlar. Bundan sonra zərbül məsəlləri "Hikmət xəzinəsi" adlanar. Atalar sözlərinin bir gündə eşitmək, yüzünü toplamaq heç kəs üçün çətin olmaz. Lakin bununla müqayisədə bir gündə altyapısıyla birlikdə beşcə zərbül məsəlləri toplamaqda çətindir. Hətta zərbül məsəllərin özü də iki yerə ayrılır. l.Hekayətli zərbül məsəllər. 2.Məcazi məna daşıyan zərbül məsəllər. Yumurtadan yun qırxır, qara sudan qaymaq çəkir, bişmiş toyuğunda gülməyi gəlir. Bunlar məcazlardır. Atalar sözləri ilə məcazları fərqləndirən cəhətlərdən ən əsası odur ki, demək olar ki, zərbül məsəllərin çoxunun mənasında gülüş yaşayır. Zərbül məsəllərin hekayətləri çox məzmunlu və mənalı olur.

Atalar sözü xalqın tarixə, tarixin də xalqa verdiyi ibrət dərsinin hamı tərəfindən qəbul və təsdiq edilən elə nəticəsidir ki, düzlüyünə və dəqiqliyinə şübhə yeri yoxdur, xalqın əqli birliyini təntənəsi, parlaq təzahürüdür. Xalqın zehni inkişaf səviyyəsini, fitri istedadını, estetik duyumundakı zərifliyi biruzə verən əsas amildir. Doğrudan da atalar sözü bütün sözlərdən uludur, hər bir atalar sözündə bir kitablıq fikir, məlumat xəzinəsi vardır.

Atalar sözü köhnəlmir-sönmür, getdikcə cilalanıb xalqın fikir-zəka göylərində ulduz kimi parlayır. Zamanların və nəsillərin, müxtəlif ictimai formasiyaların ağır sınaqlarından şərəflə keçdiyi üçün bu müdriklik dəfinələri ömrün, ləyaqətin, dostluğun, məhəbbətin, düşmənə nifrətin, ümumiyyətlə, bütün həyatı hadisələrin, bütün bəşəri həqiqətlərin əsl meyarı dəqiq nəhəng daşı olur. (1, 98)

Xalqın müşahidələrini, təsəvvür və təfəkkür tərzini, canlı məntiqini hifz eləyən atalar sözü sıxılmış yaydır, onun əsl enerjisi, təsir qüvvəsi nitq məqamında konkret zaman şərait daxilində bilinir. Düzlüyü, sərrastlığı, aydınlığı, emosionallığı, lakonizmi və bədii təsir gücü ilə atalar sözünə bərabər tutulası söz hanı? Minillik zülmətin söndürə bilmədiyi bu idrakın qığılcımları hər kəsin yaddaşında həmişə günəş qədər hərarətli, su kimi həyatidir. Bu, əsl möcüzədir, insan idrakının möcüzəsi.

Axtarışlar göstərir ki, atalar sözü və məsəllər haqqında 30-40 il bundan əvvəlki tədqiqatlarla razılaşmaq olmaz. Atalar sözü və məsəllərə XXI əsrin gözü ilə baxmaq və yeni istiqamətlərdə tədqiqat aparmaq lazımdır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, məişətimizə möhkəm daxil olan və gündəklik həyatımızda fəal rol oynayan atalar sözü və məsəllər genişliyi ilə toplanılmamışdır. Ən qiymətli nümunələr tədqiqata cəlb edilmişdir. İndiyə qədər toplanılan və həsr olunan atalar sözü məsəllərlə kifayətlənmək olmaz. Atalar sözü və məsəllər yeni elmi yanaşma isulu ilə toplanılmalı, yeni dövrün elmi-nəzəri səviyyəsində tədqiq olunmalıdır. Həmçinin atalar sözləri, "Zərbül- məsəllər" ayrıca cap olunmalı onların fərqli xüsusiyyətləri elmi şəkildə çap olunmalıdır. Əgər atalar sözü və zərb-məsəllər bir kitab daxilində çap olunarsa onları ayrı-ayrı böldükdə seçib çap etmək lazımdır. Bu zaman həmin kitabı oxuyanları atalar-sözləri ilə zərbül-məsəllərin nə kimi fərqli olduğunu öyrənə biləcəklər. Hətta atalar sözləri içərisində xalq geyimləri, xalq mərasimləri daxillmuşdur. Bunlar arasında bənzərlik çox güclüdür. Onları sezmək, tapmaq, arayıb-axtarmaq tədqiqatçıdan Azərbaycan folkloruna bələdçilik toplama və tədqiqat sahəsində dərin bilik və zəngin təcrübə tələb edir. Atalar sözü və zərb məsəllərlə məşğul olan folklorşünas kiçik xalq ehramlarını dərindən sezməli və onun mənasını üzə çıxartmalıdır. Elə buradaca xalq məsəlini həmin tədqiqatçıya xatırlatmaq yerinə düşər. "Gücün düşən daşdan yapış". Bəzi tədqiqatçılar üzdə olan, addımbaşı eşitdikləri adi söz kimi qəbul edirlər. Dibinin daşları görünən duru su bəzən dayaz görünür, insanları aldadır. O, ancaq dibini daşları görünən suya düşdükdən sonra onun dərinliyini anlayır. Dağdan gələn bulanlıq sel-su dərələrə səs salır, insan qorxusundan o suyu keçməyə cəsarət etmir. Lakin

bulanıq suya daxil olduqda suyun dizindən aşağıda durduğunu görürük. Mən bununla onu demək istəyirəm ki, dibinin daşları görünən duru sulara dayaz baxmayın. Bəzən atalar sözlərinə tanış sözlər kimi qulaq asıb keçmək olmaz. Onları maddi-məna etmək mənasını dərindən düşünmək və naticə çıxartmaq lazımdır. Atalar sözlərinə və zərbül-məsəllərə adi şəkildə yanaşmaq olmaz. Onlar da ulu əcdadımızın, babalarımızın və nənələrimizin böyük sınaqlardan keçmiş dərya-dəniz hikmətləri yaşayır. Unutmaq olmaz ki, bu atalar sözü və məsəllər minilliklərdən bəri nəsillərin ağıl süzgəcindən keçə-keçə cilalana - cilalana bu günümüzə gəlib çatmışdır. Uzun əsrlərin qədim nəsillərin yaradıcılıq nümunəsi olsada atalar sözləri və məsəllər öz təkamülünü və inkişafını tam başa çatdırmamışdır. Onuda qeyd etmək lazımdır ki, dağlar, bağlar hər fəsildə yeni çiçəklər açdığı kimi hər yeni nəsil atalar sözlərinə və məsəllərə yeni nümunələr əlavə edir. Atalar sözləri və məsəllər heç zaman öz fəaliyyətini itirmir. Əksinə xalq onu göz bəbəyi kimi qoruyur. Biz nəsil, o biri nəslə ötürür, ərmağan edir. Bu ifadəni tez-tez eşidirsən "atalar demiş", həmdə bununla onu demək istəyirlər ki, bu sözü atalar demişsə ən möhtəbər və ağlabatan sözdür. Xalqın, ataların ağlabatan insana zövq verən, dar ayaqda təsəlli və köməkçi olan atalar sözlərini nəşr etdirmək, tədqiq etmək bizə görə bir övladlıq borcudur. Bu işi bacarmaq və öhdəsindən gəlmək qəhrəmanlıq işidir.

Tədqiqatlar, araşdırmalar göstərir ki, atalar sözləri və məsəllər özlərinə məxsus bədii xüsusiyyətlərə malikdirlər. Aydındır ki, həcm etibari ilə böyük olan ədəbi əsərlərin bədii çəkisi həmin əsərlərin ayrı-ayrı hissə və lövhələrində yaradılmış bədiliyyin məcmusu deməkdir. Atalar sözü isə bu cür ayrı-ayrı qollardan axıb gələn bədiilikdən mərhumdur. Çünki onlar böyük ədəbi əsərlər kimi forma genişliyinə malik deyildilər. Lakin belə yığcamlıq və şəkli sadəlik atalar sözünün bədii ölçüsünü heç də azaltmır.

Atalar sözləri və məsəllərdə Azərbaycan xalq dilinin zənginliyindən - bədii dil vasitələri: cinas, kinayə, idiom, təşbeh, bənzətmə və sairədən bacarıqlı istifadə edilmişdir. Atalar sözü və məsəllər dünyanın ən görkəmli yazçı və sənətkatlarının tez-tez müraciət etdikləri xəzinədir. Onlar surətləri kəskin danışdırmaq, böyük fikirləri qısa sözlərlə ifadə etmək üçün həmişə atalar sözü və məsəllərdən faydalanmışlar. Böyük şəxsiyyətlə bu nümunələrdən istifadə etmiş, həm də onlar haqqında gözəl və qiymətli fikirlər söylənmişlər.

Aqil babaların ikicə sözlə yaratdığı hər birində "tam kitablar dolusu ağıl və hisslər olan", formaca kiçik, mənaca dərin, hikmətdə və zəkada, sınaqda, müşahidədə, bilik və təcrübədə min illərin yekunu, sonucu atalar sözü və məsəllər xalqın milli sərvətidir.

Atalar sözünün, həqiqətən, hər biri bir incidir. Xalq bunları yüz illər boyu yaratmış, yaşatmış, bu gün də yaşadır və yaradır. Atalar sözləri həqiqətən ipə-sapa düzülməmişdir, ağızdan-ağıza keçir, dildən-dilə gəzir, söz sərrafları, müdrik babalar, ağbirçək nənələr, el-oba bu incilərin yeni gözəl nümunələrini yaradır, bu zəka və söz sənətini daim cavan, təzətər saxlayırlar, Bu inciləri nə qədər toplayırsansa topla, sonu-nəhayəti yoxdur, gah bu kənddə, gah da o qəsəbədə, gah bir məclisdə və ya söhbətdə elə bir inciyə rast gəlirsən, elə bir hikmətli sözü eşidirsən ki, dərin mənaya, az sözdəki böyük ifadəyə, yığcam ifadədəki böyük həqiqətə heyran qalırsan. Bu tapmtıya sevinir, həm də fıkirləşirsən ki, təmsil etdiyin xalq nə qədər istedadlı, nə qədər ağıllı, nə qədər böyük hikmət sahibidir. Atalar sözü və məsəllər xalq kütlələrinin gündəlik həyatı və fəaliyyəti ilə daha çox bağlıdır.

Azərbaycan atalar sözü və məsəllərinin mövzu dairəsi çox genişdir. Bunlar xalqımızın hərtərəfli həyatı ilə əlaqədar yaranmışdır.

Atalar sözü və məsəllər xalqın həyatı və məişəti, əmək fəaliyyəti ilə daha sıx bağlı olan, formaca kiçik, mənaca geniş janrlardan biridir. Atalar sözü və məsəllərdə xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir. Ona

görə də danışıq dilində ifadələrin daha canlı, sərrast və təsirli olması üçün atalar sözü və məsəllərdən istifadə olunur.

Xalq əzəldən öz atalar sözlərini yazılmamış müqəddəs kitabın ayələri tək qavramışdır. Atalar sözü timsalında xalq öz zəkasının və dilinin ülviyyətinə, kəsərinə sığınmışdır, istənilən gümandan sualdan azaddır. Hər fikri, hər etik-əxlaqi tövsiyyəsi dərin daxili inamla qəbul olunan pozulmaz qanundur.

Atalar sözü xalqm tarixə, tarixin də xalqa verdiyi ibrət dərsinin hamı tərəfindən qəbul və təsdiq edilən elə nəticəsidir ki, düzlüyünə və dəqiqliyinə şübhə yeri yoxdur.

Atalar sözü xalqm əqli birliyinin təntənəsi, parlaq təzahürüdür. Xalqın zehni inkişaf səviyyəsini, fıtri istedadmı, estetik duyumundakı zərifliyi biruzə verən əsas amildir. Doğrudan da atalar sözü bütün sözlərdən uludur, hər bir atalar sözündə bir kitablıq fıkir, məlumat xəzinəsi vardır.Bu zəka və söz sənətinin daim təzə-tər, azalmayan sehirli təsir gücünə malik olmasma səbəb onların böyük həyat həqiqətlərini, miqyaslı əxlaqi və fəlsəfı motivləri yığcam, hikmətli üslubda, dildə ifadə etməsindədir. Qərinələrdən öncə yaranan, müdriklik süzgəcindən keçərək həyata əbədi vəsiqə alan, zəmanəmizə qədər gəlib çıxan, atalar sözləri və məsəllər indi də öz əhəmiyyətini itirmir, hikmət və tərb iyə təsirini saxlayır, milli xarakterin tarixini, onun mənəvi-psixoloji təkamülü yolunu öz ziyası ilə işıqlandırır.

## Ədəbiyyat


1. Xalqın söz xəzinəsi /tərtib edəni: P. Ş. Əfəndiyev/, Bakı, “Maarif”, 1985.
2. Vaqif Vəliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı, ADU nəşriyyatı, Bakı, 1970.
3. İ. Babayev, P. Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, “Maarif”, 1970.
4. Ziynət Əlizadə. Azərbaycan atalar sözlərinin həyatı, Bakı, "Yazıçı", 1985.
5. Sədnik Paşayev. Nizami və folklor, Bakı, "Bilik", 1976.
6. Atalar sözləri və məsəllər /tərtib edəni: Əbülqasım Hüseynzadə/, Bakı, "Azərb. Dövlət Nəşriyyatı", 1971.


**P.E.Guliyeva**

## Mythological traces in the proverbs and sayings
## Summary


The proverbs and sayings of the ancestors refer to the history, stages of development, lifestyle, view of the world, beliefs, customs and traditions of the people who created it, reflecting a unique treasure of its exceptional value in human history. This treasure touches even the strongest traces of historical truths that have been erased from the past, events, traditions, even forgotten ones. For this reason, researchers refer to these spiritual pearls, seeking through them the traces and roots of certain events. Historical proverbs and sayings, from the point of view of ancient history and historical facts, are used by lawyer to study the people's thinking through the source of moral pearls, which are kept in the tradition of forgotten traditions and ethnographical proverbs, and in the logic world. The linguist speaks of the proverbs and sayings as an indisputable source in the study of the lexical-grammatical rules of the language, the development of the human speech. Every proverb is really a frustrating one. People have created them for hundreds of years and have lived and survived today.

The proverbs and sayings, which came before the corpses, passed through the wisdom of eternity, and came to our time, are no longer lost, and have the effect of wisdom and upbringing, the history of national character, its moral and psychological evolution.


**Key words:** folk, father's word, life, genre, aspect, creativity, feature

**П.Е.Кулиева**

## Мифологические следы в пословицах и высказываниях
## Резюме

Пословицы и поговорки предков относятся к истории, этапам развития, образу жизни, взгляду на мир, верованиям и верованиям, обычаям и традициям людей, которые его создали. отражая уникальное сокровище своей исключительной ценности в истории человечества. Это сокровище затрагивает даже самые сильные следы исторических правд, которые были стерты из прошлого, событий, традиций, даже забытых. По этой причине исследователи ссылаются на эти духовные жемчужины, ища через них следы и корни определенных событий. Пословицы и поговорки предков, с точки зрения древней истории и исторических фактов, используются для изучения мышления людей через источник моральных жемчужин, которые хранятся в традиции забытых традиций и этнографических пословиц, а также в мире логики. Лингвист говорит о пословицах и поговорках как о неоспоримом источнике при изучении лексико-грамматических правил языка, развитии человеческой речи. Пословицы действительно являются жемчужиной. Люди создавали их сотни лет, жили и выжили до сих пор.

Пословицы и поговорки, которые были испокон веков, прошли через мудрость вечности и дошли до нашего времени, еще не потеряны, имеют особенность мудрости и воспитания, истории национального характера, его морально-психологического развития.

**Ключевые слова:** народ, пословица, жизнь, жанр, аспект, творчество, свойство

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 26.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Yusifli tərəfindən çapa tövsiyə olunmuşdur.